# Heydər Əliyev və Qızıl Aypara Cəmiyyəti

May ayının əvvəlində Qızıl Aypara cəmiyyəti Qəbələ rayon bölməsinin kollektivi Heydər Əliyev Mərkəzində ulu öndərin 90 illik yubileyinə həsr olunmuş tədbir keçirmişdi. Məclisdə şəhər məktəbliləri, ictimaiyyətin nümayəndələri və Qızıl Aypara Cəmiyyətinin könüllüləri iştirak etmişlər.

Yığıncaqda iştirak edən Qızıl Aypara cəmiyyəti Qəbələ rayon bölməsinin sədri Sədaqət Bayramova «Heydər Əliyev və Azərbaycan» mövzusunda çıxış etmişdi. O, vurğuladı ki, Azərbaycan xalqının taleyüklü hadisələrlə dolu 30 ildən artıq bir dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövr ərzində ümummilli lider Azərbaycanı zamanın ən çətin sınaqlarından çıxararaq ölkənin ictimai-siyasi, iqtisadi və mədəni tərəqqisinə nail olmuş qüdrətli şəxsiyyətdir. Heydər Əliyev büllur kimi əməlləri ilə bütün ömrünü öz doğma xalqına həsr etdiyinə görə dahilik zirvəsini fəth etmiş və əbədiyaşarlıq qazanmış, Azərbaycan tarixinə öz şərəfli adını qızıl hərflərlə yazmışdır.

Heydər Əliyev heç vaxt xalqa fantastik və populist vədlər vermirdi, əksinə real vəziyyəti və konkret şəraitdə əldə ediləbiləcək nəticələri olduğu kimi təqdim edirdi. «Mənim həyatım amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik, qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib». Müstəqil Azərbaycanın ağır günlərində Heydər Əliyevin göstərdiyi bu qətiyyət sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib.

S. Bayramova Heydər Əliyevin ikinci dəfə xalqın istək və arzusu ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan Qızıl Aypara Cəmiyyətinə göstərdiyi diqqət və qayğıdan da bəhs etdi. Bildirdi ki, ümummilli lider Heydər Əliyevin cəmiyyətimizə göstərdiyi qayğı sayəsində Milli Məclis 25 noyabr 1994-cü il tarxli «Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətini yaxşılaşdırmaq haqqında» Qanun qəbul etdi və bu məlum sənəddən sonra cəmiyyət respublikada yeganə humanitar təşkilat kimi qeydə alınmışdır. Halhazırda onun beynəlxalq aləmdə fəaliyyət dairəsi genişlənmiş, cəmiyyətin inkişafı üçün geniş perspektivlər açılmışdı.

Tədbirdə şəhər 1 saylı tam orta məktəbin müəllimi Zibeydə Əhmədova, Qızıl Aypara Cəmiyyətinin könüllülərindən Aydan Hüseynzadə çıxış etmişlər.

Sədaqət Bayramova yığıncağı yekunlaşdırdı.

**Aslan CƏLİLOV.**

# Qəbələ III Beynəlxalq «Portretlərin melodiyası» adlı İncəsənət Sərgisi başa çatdı

Azərbaycan Mədəniyyəti Fondu (AMF) və SEBA (Seul—Bakı) Azərbaycan—Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının təşkilatçılığı ilə hər il keçirilən "Qəbələ beynəlxalq incəsənət sərgisi" layihəsi artıq növbəti mövzusu ilə dünya incəsənət xadimlərini bir araya gətirmişdir.

2013-cü ilin may ayının 5 dən başlayan "Qəbələ III Beynəlxalq İncəsənət Sərgi"si ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuşdur. «Portretlərin melodiyası» adlı sərgidə 23 ölkədən 158 rəssamın—Clirim Ceka (Albaniya), Linde Vaber (Avstriya), Therese Maria Polus (Almaniya), Mimo Mondal (Banqladeş), Geo Arruda (Braziliya), Hristo Panev (Bolqarıstan), Çingiz Abbasov (Finlandiya) və digərlərinin əsərləri nümayiş olundu.

Azərbaycan tərəfindən Sərginin iştirakçıları arasında görkəmli rəssamlarldanTahir Salahov, Ağali İbrahimov, Altay Sadıqzadə, Arif Əziz, Arif Hüseynov, Mirnadir Zeynalov, Sakit Məmmədovla yanaşı, gənc rəssamlardan Məryəm Ələkbərli, Safranda Abdullayeva, Aysel Heydərova, Yaşar Məmmədov və Cəlal Ağayevin, yerli rəssamlardan Malik Ağayevin də əsərləri sərgilənirdi. Sərgi rayonumuza gələn turistlər və rayon ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanmışdır. Cənubi koreya, Rusiya, Almaniya, Türkiyədən gələn qonaqlarla yanaşı Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səlahiyyətli səfiri Riçard Morninqstar Qəbələyə səfəri zamanı sərgiyə baxmışdır.

2013-cü ilin may ayının 5-dən başlayan «Qəbələ III Beynəlxalq İncəsənət Sərgisi» may ayının 19-da başa çatdı.

**Cəmilə ƏLİYEVA,**
**Qəbələ Dövlət Rəsm Qalereyasının ekskursiyaçısı.**

# Abidəyə ziyarət

Bum qəsəbə uşaq bağçası rayonumuzun ən qabaqcıl məktəbəqədər tərbiyə müəssisələrindən biridir. Bağçada 1 qrup fəaliyyət göstərir. Uşaqların tərbiyəsi ilə ixtisaslı müəllimlər məşğul olurlar.

Uşaq ilk dəfə baxçada ictimai tərbiyə mühitinə düşür, kollektivçilik şəraitinə uyğunlaşır. Bu da uşağın gələcək inkişafında, ictimaiyyət arasında yer tutmasında və özünü aparmasında olduqca müsbət amildir.

Biz uşaqların milli ruhda tərbiyəsinə xüsusi əhəmiyyət veririk. Bu günlərdə uşaqları ümummilli liderimiz Heydər Əliyevin şəhərimizin mərkəzində yerləşən abidəsini ziyarət etməyə aparmışıq. Sonra Heydər Əliyev mərkəzinə gedərək ümumilli liderimizin həyat və fəaliyyəti ilə bağlı fotolarla tanış olmuşuq.

Kollektivimiz uşaqların qeyd olunan istiqamətdə məktəbə hazırlanması üçün var qüvvəsi ilə çalışacaqdır.

**Rahilə SƏDİROVA,**
**bağçanın müdiri**

# Xatirə saatı

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü rayonumuzun idarə, müəssisə və təşkilatlarında qeyd olunur.

Rayon gigiyena və epidemiologiya mərkəzində bu günlərdə ümummilli liderimizə həsr olunmuş xatirə saatı keçirilmişdir.

Tədbiri mərkəzin direktor əvəzi Atif Məmmədov açmışdır.

Mərkəzin şöbə müdiri Hikmət Abdullayev ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyəti barədə geniş məruzə etmişdir.

Mərkəzin işçilərindən Fəxrəddin Bağırov, Mahizər Umarova və başqaları ulu öndərin müstəqil Azərbaycan dövlətinin çiçəklənməsi, inkişafı, dünyada tanıdılması üçün gördüyü işlərdən danışmışlar.

Tədbiri Atif Məmmədov yekunlaşdırmışdır.

**«QƏBƏLƏ».**

# Hamının ürəyincə

Ulu öndər Heydər Əliyevin 90 illiyi ilə əlaqədar tədbir Vəndam qəsəbəsində böyük təntənə ilə qeyd olundu. Tədbiri bu sətrlərin müəllifi açaraq məruzə üçün sözü Yeni Azərbaycan Partiyası Vəndam qəsəbə təşkilatının sədri Sadiq Sadıqova verdi.

Məruzəçi ulu öndərin həyat və yaradıcılığı barədə məruzə etdi. Sonra isə söz musiqiyə verildi. Müğənnilər Tənzilə Lətifova, Elnarə Zülfüqarova, Hacıbaba Ədilov, gitarada Sənan Əhmədov, nağarada Ərəstun Abdurahmanov, sintizatorda Yanar Məzumov məharətlərini göstərdilər. 1, 2, 3 saylı tam orta məktəblərin şagirdlərinin hazırladıqları şeirlər tamaşaçıların ürəyinscə oldu.

**Azər AZAYEV,**
**Vəndam sənətkarlıq evinin direktoru.**

# Tədris mərkəzində

***Elm səbəb, əməl isə nəticədir.***
**Nəsrəddin Tusi.**

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində ulu öndər Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş bilik yarışması keçirilmişdir. Yarışmanın keçirilməsində əsas məqsəd şagirdlərin bilik səviyyəsini, məntiqi qavrama qabiliyyətini aşkara çıxarmaq və inkişaf etdirməkdən ibarətdir.

İlk olaraq mərkəzin fəaliyyətindən bəhs edən video-çarx təqdim olundu.

Mərkəzin direktoru Eyvaz Kazımov çıxış edərək bildirdi ki, belə yarışların tez-tez keçirilməsi həm zəruri, həm də vacibdir. Çünki bizim məqsədimiz, amalımız istedadlı, bacarıqlı, təcrübəli, intelektual səviyyəli gənclər yetişdirməkdir. Çıxışının sonunda Eyvaz Kazımov hər bir komandaya uğurlar arzuladı.

Yarışda 4 komanda iştirak edirdi: «Qafqaz», «Zəka», «Uğur» və «Ümid». Hər komanda 5 üzvdən ibarət idi. Mərkəzin İKT üzrə fənn müəllimi Rəşad Şahverdiyev yarışın qaydaları haqqında məlumat verdi. Yarışacaq komandalar püşk atılaraq müəyyən olundu. Oyunun qaydalarına uyğun olaraq yarışacaq komandalar 5 raund üzrə müəyyən olunmuş suallara cavab verməli idilər. Suallar əsasən ümumi fənn bloku, intelektual məntiq və ixtisas peşə fənləri üzrə idi. Verilən sualların proyektor vasitəsilə işıqlandırılması digər şagirdlərin fəal olmasına şərait yaradırdı.

I mərhələdə «Zəka» və «Qafqaz» komandaları qarşılaşdı. Görüş «Qafqaz» komandasının qələbəsi ilə başa çatdı. II mərhələdə «Uğur» və «Ümid» komandaları üzüzə gəldi. Ümid komandası finala vəsiqə qazandı. Nəhayət, final mərhələsində «Qafqaz» və «Ümid» komandaları yarışdı. «Ümid» komandası yarışmanın qalibi oldu.

Sonda komandanın üzvlərinə mükafatlar verildi. Yarışda həmçinin digər şagirdlər də fəallıq göstərərək yarışmanın daha maraqlı keçməsinə səbəb oldular.

**Vüsalə QƏRİBOVA,**
**tədris mərkəzinin psixoloqu.**